

# ELÇİN

## *Aqil Abbasa*

Əzizim Aqil!

Səni, görkəmli və sevimli yazıçımızı, romanların, povestlərin, hekayələrinlə ədəbiyyatımızı zənginləşdirmiş qələm sahibini, mənim sədaqətli və etibarlı dostumu yubileyin münasibətilə qəlbən təbrik edirəm.

70 rəqəmini ona görə yazmıram ki, sən mənim təsəvvürümdə əlli il bundan əvvəlki gənc, istedadlı, mehriban Aqilsən və ən əsası isə aradan keçən bu uzun illər ərzində elə həmin gənclik ehtirası ilə, həmin istedadla yazıb-yaratmısan.

Doğrusunu deyim, eşidəndə ki, aprelin birində sənin qocaman yubileyindir, elə bildim, bu da zarafatı sevən Aqilin bir aprel zarafatıdır, ancaq sənin kitablarının, sənin qəzetinin səhifələri qulağıma pıçıldadı ki, yox, əfəndim, bu zarafat deyil.

Arzu edirəm ki, sən eyni yaradıcı gənclik nəfəsi və eşqi ilə hələ çox-çox qocaman yubileylərini qarşılayıb, yola salasan və tamam əminəm ki, bu cür də olacaq.

*31 mart 2023*
*Bakı*

Ədəbiyyat qəzeti.- 1 aprel.- 2023- cü il.- S. 9.